AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 89

Bakı şəhəri "23" oktyabr 2015-ci il

**"Rezidentin kuratoru haqqında əsasnamə"nin təsdiq edilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq rezidenturada həkim-mütəxəssislərin hazırlığının təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Rezidentin kuratoru haqqında əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Rezidenturada həkim-mütəxəssis hazırlığını aparan klinik bazaların rəhbərlərinə tapşırılsın ki, kuratorlar və aidiyyəti olan digər işçilər bu əmrlə təsdiq olunan sənədlə tanış edilsin.

3. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, "Rezidentin kuratoru haqqında əsasnamə"yə uyğun olaraq kuratorlara təlimlərin keçirilməsi üçün təlim paketinin hazırlanması və təlimlərin 2015/2016-cı tədris ili ərzində aparılması təmin olunsun.

4. Əmrin icrasına nəzarət nazir müavini A.Vəlibəyova həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
23.10. 2015-ci il tarixli 89 nömrəli
əmri ilə təsdiq olunmuşdur

# REZİDENTİN KURATORU HAQQINDA ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Bu əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq klinik bazaya malik olan ali tibb təhsili və elmi müəssisələrdə və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən rezidentlərin hazırlanması üçün klinik baza kimi müəyyən edilən tibb müəssisələrində (bundan sonra klinik baza) rezidentura təhsili alan rezidentlərə klinik baza rəhbərliyi tərəfindən təyin olunmuş rezidentin kuratorunun (bundan sonra – kurator) vəzifə öhdəliklərini, hüquq və məsuliyyətini müəyyən edir.

1.2. Kurator – rezidentin müvafiq ixtisas üzrə zəruri olan nəzəri biliklərə və peşə vərdişlərinə yiyələnməsini təmin edən mütəxəssisdir. Kurator rezidentin fərdi iş planını yerinə yetirməsini təşkil edir.

1.3. Kurator vəzifələri elmi dərəcəsi, elmi adı olan və ya elmi dərəcəsi, elmi adı olmayan, ixtisas üzrə iş təcrübəsi 10 ildən çox olan mütəxəssisə həvalə olunur. Klinik bazada elmi dərəcəsi, elmi adı olan və ya elmi dərəcəsi, elmi adı olmayan ixtisas üzrə iş təcrübəsi 10 ildən çox olan mütəxəssislərin kifayət qədər olmadığı hallarda, rezidentin kuratoru vəzifələri ixtisas üzrə iş təcrübəsi 5 ildən çox olan və xarici ölkələrin tibb universitetlərində və tədris klinikalarında rezidentura təhsili almış aparıcı həkim-mütəxəssislərə həvalə olunur.

1.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq klinik baza rəhbərinin əmri ilə müvafiq tələblərə uyğun seçilmiş mütəxəssislərə onların öz razılığı nəzərə alınmaqla əmək müqaviləsi üzrə rezidentin təhsil aldığı müddətə kurator vəzifələri həvalə olunur və geri götürülür.

1.5. Kurator vəzifələrini həyata keçirən şəxs öz xahişi ilə yaxud rezidentin təşəbbüsü ilə, həmçinin vəzifə öhdəliklərini yerinə yetirmədikdə yaxud layiqincə yerinə yetirmədikdə kurator vəzifələrindən azad olunur.

1.6. Təhkim olunmuş rezidentlərin (bundan sonra - rezidentlər) pasiyentlərə göstərilən xidmətlərdə iştirak etməsinə baxmayaraq, xidmətlərin keyfiyyətinə pasiyentlərin müalicə həkimi özü olduğu təqdirdə kurator birbaşa məsuliyyət daşıyır.

## 2. Kuratorun fəaliyyət istiqamətləri

2.1. Kurator öz fəaliyyətini aşağıdakı istiqamətlərdə qurur:

2.1.1 Kurator rezidentlərin zəruri bilik, bacarıq və yanaşmalara yiyələnməsini təmin edir və şərait yaradır;
2.1.2 Kurator rezidentlərin təhsilinə nəzarət edir;
2.1.3 Kurator rezidentlərin fəaliyyətini qiymətləndirir;
2.1.4 Kurator rezidentlərin hazırlığı üzrə özünün peşəkarlığını, bilik, bacarıq və yanaşmalarını davamlı təkmilləşdirir.

## 3. Kuratorun vəzifələri

3.1.Kuratorun vəzifələrinə aşağıdakılar aiddir:

3.1.3 rezidentura təhsili üzrə qanunvericiliyə əməl edir;
3.1.4 rezidentin hazırlığını ixtisas üzrə təhsil proqramına əsasən aparır;
3.1.5 yetkin insanların tədrisi prinsiplərinə əməl edir;
3.1.6 təhsil proqramında ixtisas rotasiyaları üçün müəyyən olunmuş təhsil məqsədlərinə nail olur;
3.1.7 bilik, bacarıq (texniki və klinik qərarvermə bacarıqları daxil olmaqla) və yanaşmaları öyrədərkən münasib tədris üsullarından istifadə edir;
3.1.8 rezidentlərə hörmətlə yanaşır, ünsiyyət bacarıqlarından səmərəli istifadə edir və yaxşı peşəkar münasibətlər qurur;
3.1.9 rezidentlərə öz peşəkar davranışı ilə müsbət nümunə göstərir;
3.1.10 təhsil proqramının bütün tələblərinin tam həyata keçirilməsi üçün rezidentlərin fərdi iş planının tərtib olunmasına kömək edir və yerinə yetirilməsini təşkil edir;
3.1.11 rezidentlərin peşəkar inkişafına kömək edir, həkim-mütəxəssis üçün vacib olan səriştələri əldə etmələrinə dəstək göstərir;
3.1.12 rezidentlərin sualları ilə ona hər zaman müraciət edə bilməsinə şərait yaradır;
3.1.13 rezidentlərə hər hansı bilik, bacarıq yaxud yanaşmanı öyrətməyi planlaşdırır və xüsusi vaxt ayırır;
3.1.14 rezidentlərin təhsil və əmək prosesi ilə bağlı qaydaları anladığını aydınlaşdırır və lazım gəldikdə məsləhətlər verir;
3.1.15 rezidentlərə ixtisasla bağlı ədəbiyyat siyahısını təqdim edir;
3.1.16 rezidentləri ixtisas üzrə qüvvədə olan nörmativ hüquqi, təlimat-metodik sənədlərlə tanış edir və öz fəaliyyətində istifadə etməsinə nəzarət edir;
3.1.17 rezidentlərin sərbəst öyrənməsi üçün şərait yaradır;
3.1.18 bacarıqları öyrətmək üçün müvafiq təlim üsullarından və klinik bazanın şəraiti imkan verdiyi halda müasir texnologiyalardan, o cümlədən simulyatorlardan istifadə edir;
3.1.19 elmi adı, elmi dərəcəsi olduğu halda rezidentlərin elmi-tədqiqat işinə rəhbərlik edir və dəstək verir;
3.1.20 rezidentləri tədris və elmi tədbirlərdə iştiraka istiqamətləndirir;
3.1.21 rezidentləri pasiyentlərə göstərilən xidmətlərə fəal cəlb edir;

3.1.22 hər yeni pasiyentə yaxud onun qanuni nümayəndəsinə rezidentləri təqdim edir;
3.1.23 pasiyentlərə tibbi xidmətlərin göstərilməsi üzrə rezidentlərə klinik tapşırıqlar verərkən rezidentlərin təhsil ili, səriştəliyinin səviyyəsi, pasiyentin vəziyyətinin və xəstəliyinin ağırlığını nəzərə alır və şöbə müdiri ilə razılaşdırır;
3.1.24 yalnız rezidentlərin səriştəliyindən əmin olduğu zaman onların nəzarətlə sərbəst fəaliyyət göstərməsinə icazə verir;
3.1.25 rezidentlərin hər tədris ilinin sonunda fərdi iş planının yerinə yetirilməsi ilə bağlı hesabatlarını təqdim etdikləri klinik bazanın elmi yaxud tibbi şurasında iştirak edir;
3.1.26 rezidentlər tərəfindən gündəliyin aparılmasına nəzarət edir;
3.1.27 rezidentlərin fəaliyyətinə olan nəzarətin səviyyəsini fərdi olaraq rezidentin səriştəliyi və təcrübəsinə uyğunlaşdırır. Rezidentin klinik fəaliyyətinə nəzarətin səviyyəsinin azaldılaraq daha artıq sərbəstlik verilməsi barədə qərarlarını şöbə müdiri ilə birlikdə qəbul edir;
3.1.28 rezidentlərin təhsil prosesində meydana çıxan problemlərinin həlli üçün dərhal və lazımi tədbirlər görür;
3.1.29 rezidentlərin attestasiyalarda iştirakından əmin olur, göstərdikləri nəticələri onlarla müzakirə edir və tövsiyələr verir;
3.1.30 rezidentlərin təmasda olduğu müxtəlif işçilər tərəfindən onlara müsbət və konstruktiv rəyin verilməsini nəzarətində saxlayır;
3.1.31 digər tibb müəssisəsində yaxud digər şöbədə keçirilən hər rotasiyadan sonra rezidentlərin rotasiya ilə bağlı rəyini soruşur və rəy mənfi olarsa rəhbərliyi məlumatlandırır;
3.1.32 digər şöbənin müdirinin rezidentlərin təlim ehtiyaclarından xəbərdar olmasını təmin edir və təhsil proqramına uyğun tibbi təlim keçməsini nəzarətdə saxlayır;
3.1.33 müntəzəm olaraq rezidentlərin fəaliyyətini (rezidentlərin prezentasiyalarını, rezidentlər tərəfindən pasiyentlərə tibbi xidmətlərin göstərilməsini, prosedur və əməliyyatların icra olunmasını, tibbi sənədləşmənin aparılmasını və sair) müşahidə edir yaxud nəzərdən keçirir, müsbət və konstruktiv rəy verir;
3.1.34 rotasiyanın sonunda müvafiq qaydada rezidentlərin fəaliyyətini qiymətləndirir, şöbə müdirinə təqdim edir və rezidentlərin təhsildə irəliləyişini müzakirə edir;
3.1.35 rotasiyalar üzrə rezidentlərin fəaliyyətinin qiymətləndirilməsi formalarının əsasında hər tədris ilinin sonunda rezidentlərə rəy və tövsiyələrini bildirir, həmin qiymətləndirilmə formalarını şöbə müdirinə təqdim edir və müzakirə edir;
3.1.36 qiymətləndirmənin əsasında rezidentlərin təlimə olan ehtiyaclarını müəyyən edir və əldə etməkdə çətinlik çəkdikləri bilik, bacarıq və yanaşmalara yiyələnməsinə kömək edir;
3.1.37 hər hansı rezidentin fəaliyyəti narahatlıq doğurduğu halda şöbə müdirinə məlumat verir;
3.1.38 kurator kimi özünün peşəkarlığını, bilik, bacarıq və yanaşmalarını davamlı təkmilləşdirir.

## 4. Hüquqlar

4.1.Kuratorun aşağıdakı hüquqları vardır:

4.1.3 rezidentlərin hazırlığı prosesinin təkmilləşdirilməsi üçün rəhbərliyə təkliflər vermək;

4.1.4 öz səlahiyyətləri çərçivəsində rezidentlərin işinə nəzarət etmək, tapşırıqlar vermək və onların həvəsləndirilməsi və tənbeh edilməsi üzrə rəhbərliyə təkliflər vermək;

4.1.5 kurator kimi öz vəzifə öhdəliklərinin icrası üçün zəruri olan normativ hüquqi, təlimat-metodik sənədləri, təhsil proqramlarını rəhbərlikdən tələb etmək və əldə etmək;

4.1.6 kurator fəaliyyəti və rezidentura təhsili ilə bağlı məsələlərin müzakirə olunduğu konfranslarda və müşavirələrdə iştirak etmək;

4.1.7 kuratorlar üçün təşkil olunan müvafiq təlimlərdə iştirak etmək.